**МИНИСТЕРСТВО ОБРОЗОВАНИЯ АЗЕРБАЙДЖАН-СКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**СУДАБА НОВРУЗАЛИ ГЫЗЫ ГУСЕЙНОВА**

# СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ПРАВОСОЗНАНИЯ ЛИЧНОСТИ В СОВРЕМЕННЫХ УСЛОВИЯХ

**6114.01 - Социальная-психология**

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по психологии

**БАКУ - 2014**

AZƏRBAYCAN RESPUBLİ KASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**SÜDABƏ NOVRUZƏLİ QIZI HÜSEYNOVA**

# MÜASİR DÖVRDƏ ŞƏXSİYYƏTİN HÜQUQ DÜŞÜNCƏSİNİN SOSİAL - PSİXOLOJİ ASPEKTLƏRİ

**6114.01 - Sosial psixologiya**

Psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2014**

İş AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun Sosiologiya və sosial psixologiya şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: AMEA-nın müxbir üzvü, psixologiya üzrə elmlər doktoru, professor **Bəxtiyar Həmzə oğlu Əliyev**

Rəsmi opponentlər: psixologiya üzrə elmlər doktoru, professor **Ərəstun Təriş oğlu Baxşəliyev**

psixologiya üzrə fəlsəfə doktoru **Yamən Əziz qızı Vəliyeva**

Aparıcı təşkilat: Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Fəlsəfə və sosial psixologiya kafedrası

Müdafiə "_25___" "___10__" 2014-cü ildə saat "____" da Bakı Dövlət Universitetinin nəzdində psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.014 Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23, II korpus, auditoriya 901

Dissertasiya ilə BDU-nun elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" "_________" 2014 - cü ildə göndərilib.

FD. 02.014 Dissertasiya şurasının elmi katibi

psixologiya üzrə fəlsəfə doktoru, dosent **Rəşid Vəkil oğlu Cabbarov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müasir dövrdə dövlətlərarası inteqrasiyanın güclənməsi, yeni tipli cəmiyyətə keçid şəraitinin yaranması bir çox sahələrdə olduğu kimi hüquq institutlarında da xaraktercə yeni düşnücə tərzinin formalaşmasına və bu konteksdə yeni münasibətlər sisteminin bərqərarına gətirib çıxardı. Cəmiyyətdə gedən dinamik dəyişilmələr, əvvəlkindən fərqli sosial münasibətlərin yaranması, köhnə sterotiplərin və neqativ təcrübənin dağılması insanların hüquq düşüncəsində fərqli təsəvvürlərin ortaya çıxmasına zəmin yaratdı.

Aparılmış tədqiqatlar göstərir ki, şəxsiyyətin hüquq düşüncəsində baş verən deformasiyalar, cəmiyyətdə ədalət axtarışına olan neqativ tendensiya cinayətkarlığın artmasına gətirib çıxarır və şəxsiyyətin sosial münasibətlər sistemində ciddi fəsadlar yaradır.

Nəzərə almaq lazımdır ki, hüquq düşüncəsi özündə hüquq normaları ilə tənzim olunan ictimai münasibətləri, dəyərlər sistemini və koqnitiv metamorfozları əks etdirir. Bu baxımdan şəxsiyyətin hüquq düşüncəsində formalaşan neqativ təsəvvürlər yalnız hüquq normaları, hüquqi şüur haqqında düşüncə tərzinə və ona münasibətə təsir etmir, həm də onun dəyərlər sisteminə, ideallarına, sərvət yönümünə, ən başlıcası isə sosial-psixoloji münasibətlər sisteminə hərtərəfli təsir göstərir.

Hüquq düşüncəsi hüquqi şüurla birbaşa bağlıdır. Hüquqi şüurun inkişafı həmişə sosial mühitin təsiri ilə şərtlənir. "Onun formalaşmasına bir çox amillər təsir edir. Belə təsiredici amillər içərisində ümumi sosial amillərlə yanaşı, fərdin əhatə olunduğu mikromühit də ciddi təsir göstərir. Həmin təsirlər sayəsində insanda müxtəlif məzmunlu davranış və rəftar normaları formalaşır, yəni insan müəyyən mənəvi keyfiyyətlərə malik olur."[1] Deməli hüquq düşüncəsinin pozitiv yönümdə formalaşdırılması həm də şəxsiyyətdə mənəvi keyfiyyətlərin inkişafına zəmin yaradır.

Bütün bunlarla yanaşı müasir dövrdə hüquqi fikirlərin inkişafında plüralist mövqe şəxsiyyətin hüquq düşüncəsinin formalaşmasına yeni çalarlar gətirir, hüquqi şüurun və hüquqi münasibətlərin təhlilində və tənzimlənməsində yeni yanaşmalar tələb edir. Məhz bu baxımdan yeni yaranmaqda olan sosiomədəni şəraitdə hüquq, hüquq düşüncəsi, hüquqi şüur, hüquqi mədəniyyət və s. kimi anlayışlara yenidən baxılması və yeni şəraitə uyğun şəkildə dəqiqləşdirilməsi tələbatı yaranır.

---

[1] Bayramov Ə., Əliyev B. Hüquq psixologiyası. (Dərslik). Bakıl: Təhsil, 2012, s.211

Respublikamızda demokratik dəyərlərə əsaslanan və ədalətli məhkəmə-hüquq sisteminə arxalanan vətəndaş cəmiyyəti qurulur və yeni hüquqi subyektlər bu vətəndaş cəmiyyətinin subyektləridirlər. Onların fəaliyyətini təhlil edərkən, konkret bir cəmiyyətin sosiomədəni reallıqları nəzərə alınmalıdır. Qeyd olunmalıdır ki, qloballaşma dövründə hüquqi biliklərin inteqrasiyası şəxsiyyətin hüquqi sosializasiyasında yeni məziyyətlər ortaya çıxarır ki, bu da hüquq düşüncəsinin öyrənilməsinə yeni sosial-psixoloji yanaşmanı zəruri edir.

Hüquq düşüncəsinin adekvatlığı bir tərəfdən cəmiyyətin fəal qurucusu olan şəxsiyyətin formalaşdırılmasına, digər tərəfdən isə sosial-psixoloji münasibətlərin etik normalar üzərində qurulmasına, şəxsiyyətin azadlığına, hüquqlarının müdafiə ediləcəyinə inam və zəmin yaradır. Bu baxımdan şəxsiyyətin hüquq düşüncəsinin sosial-psixoloji istiqamətlərinin öyrənilməsi xüsusi aktuallıq kəsb edir.

**Mövzunun işlənmə səviyyəsi**. Şəxsiyyətin hüquq düşüncəsinin psixoloji, hüquqi aspektlərini bir çox tədqiqatçılar araşdırmışlar.

Şəxsiyyətin hüquq düşüncəsinin sosial-psixoloji və hüquqi-psixoloji aspektlərinin öyrənilməsinə Azərbaycan psixoloqlarının sanballı tədqiqat işləri həsr olunmuşdur (B.H.Əliyev, Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, İ.Ə.Seyidov, S.M.Məcidova, Y.Ə.Vəliyeva, A.F.Səməndərova, E.Ə.Əhmədova və b.).

Problemin hüquqi aspektlərinə də az saylı tədqiqatlar həsr olunmamışdır (F.Səməndərov, M.Babayev, F.Əhmədov, A.Rzayev və b.).

Qeyd etmək lazımdır ki, hüquq düşüncəsinin öyrənilməsilə bağlı xarici ölkə tədqiqatçılarının əsərləri xüsusi maraq doğurur. Hələ 1922-ci ildə C.H.Cooley özünün «İnsan təbiəti və sosial nizam» adlı tədqiqatında hüquq pozucularının davranışını təhlil edərək belə bir nəticəyə gəlmişdir ki, şəxsiyyətin hüquqi davranışının formalaşması bilavasitə onun aid oluduğu sosial mühitin təsirindən asılıdır. H.Relsenin «Hüquq və dövlət nəzəriyyəsi» əsərində hüquqi dövlətin formalaşması tarixi təhlil olunur və müasir dövlət formaları hüquq düşüncəsinin təkamülünün nəticəsi kimi qiymətləndirilirdi. T.Parsons isə özünün «Hüquq və sosial nəzarət» adlı tədqiqat işində hüquq sistemini cəmiyyətin sosial nəzarət vasitəsi kimi qiymətləndirir və bunu tarixi-empirik əsaslarda izah etməyə çalışırdı.

XX əsrin 60-70-ci illərində M.Gluckman «Ənənəvi cəmiyyətdə siyasət, hüquq və rituallar», O.Toffler «Hüquq və nizamın gələcəyi», XX əsrin 80-90-cı illərində G.Teubner «Hüquqi düşüncə: hüququn konstruktivist epistemologiyasına doğru», G.Teubner və A.Febbrajonun «Dövlət, hüquq və iqtisadiyyat autopoetik sistemlər kimi» və başqaları öz əsərlərində hüquq düşüncəsinin formalaşmasında sosial mühitin və şəxsiyyətin fərdi keyfiy-

yətlərinin rolunu müəyyənləşdirməyə çalışmışlar.

Hüquq düşüncəsinin, hüquqazidd davranışın, cinayətkar davranışın hüquqi və psixoloji əsaslarda öyrənilməsində Rusiya tədqiqatçılarının araşdırmalarını xüsusi qeyd etmək lazımdır (S.A.Tararuxinin, V.N.Kudryavsevin, A.F.Zelinskinin, A.R.Ratinovun, A.Y.Mordovsevin, L.V.Afanasyevskinin, S.N.Kojevnikovun, V. Knapp və A.Qerloxun, L.Q.Qorşenin, İ.A.İlyin, V.Q.Maraça, V.M.Rozin və b.). Onlar öz tədqiqatlarında hüquqi şüur və hüquqi düşüncənin nəzəri və metodoloji əsaslarda təhlili ilə yanaşı, empirik əsaslarda öyrənilməsi və profilaktik tədbirlərin aparılması istiqamətlərini müəyyən etmişlər. Lakin olduqca mürəkkəb struktura malik hüquq düşüncəsinin tədqiqində bu əsərləri yetərli hesab etmək olmaz. Bu sahədəki tədqiqatlar hələ də sistemli xarakter daşımır və bu da problemin bir daha aktuallığından xəbər verir.

**Tədqiqatın obyekti** müxtəlif yaş dövrlərində olan insanlarda hüquq düşüncəsinin təzahür xüsusiyyətləridir.

**Tədqiqatın predmeti** şəxsiyyətin hüquq düşüncəsinin sosial-psixoloji xüsusiyyətlərinin öyrənilməsidir.

**Tədqiqatın məqsədi** müasir Azərbaycan cəmiyyətində hüquq düşüncəsinin formalaşmasının sosial-psixoloji əsaslarının öyrənilməsi və hüquq düşüncəsinin təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsidir.

**Tədqiqatın fərziyyəsi.** Şəxsiyyətin fərdi-psixoloji xüsusiyyətləri ilə sosial-psixoloji amillərin qarşılıqlı təsiri onun hüquq düşüncəsinin xarakter və səviyyəsini şərtləndirir.

Əsas fərziyyə ilə yanaşı bir neçə əlavə fərziyyə də irəli sürülmüşdür:

- Hüquq normalarının şəxsiyyətlərarası münasibətlərdə təzahürünün sosial-psixoloji xüsusiyyətləri onun hüquq düşüncəsinin təşəkkülünə əhəmiyyətli təsir göstərir.

- Hüquqi maarifləndirmə hüquq düşüncəsinin inkişafının əsas aspekti kimi hüquqi şüurun formalaşmasına hərtərəfli təsir göstərir.

**Tədqiqatın vəzifələri.** Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- Şəxsiyyətin hüquq düşüncəsinin öyrənilməsilə bağlı aparılan tədqiqatların təhlil edilməsi;

- Azərbaycanda hüquq düşüncəsinin öyrənilməsi baxımından problemin aktuallığını əsaslandıran şərtlərin göstərilməsi;

- Hüquq düşüncəsinin formalaşmasında sosial-mədəni mühitin rolunun müəyyənləşdirilməsi;

- Fərqli sosial-mədəni şəraitlərdə Azərbaycanda hüquq düşüncəsinin inkişaf istiqamətlərini, hüquqi sosiallaşmanın sosial-psixoloji əsaslarının

tədqiq edilməsi;

- Şəxsiyyətin hüquq düşüncəsinin inkişaf etdirilməsi üçün zəruri olan yol və vasitələrin aşkar olunması, profilaktik tədbirlərin həyata keçirilməsinin sosial-psixoloji istiqamətlərinin müəyyən edilməsi.

**Tədqiqatın metodoloji əsasları və metodları.** Tədqiqatın metodoloji əsasını ümümpsixoloji və sosial-psixoloji nəzəriyyələr təşkil edir. Müasir dövrdə demək olar ki, bütün elm sahələrində hər hansı bir problemin öyrənilməsində fənlərarası yanaşmadan uyğun şəkildə istifadə edilməsinə üstünlük verilir. Məhz bu əsasda tədqiqatda hüquq düşüncəsinin öyrənilməsi ilə bağlı həm psixoloji, həm antropoloji, həm sosiomədəni, həm sosioloji və hüquqi konsepsiyalara istinad edilmişdir.

Tədqiqatda bir sıra psixodiaqnostik metodlarından, o cümlədən anket sorğusundan, Ayzenqin şəxsiyyət sorğusu, A.N.Oryolun "Normadan yayınan davranışa meyillilik" lə bağlı test-sorğusu, L.Kolberqin "Dilemmalar" (6 dilemma) metodlarından istifadə edilmişdir. Tədqiqat 350 nəfəri əhatə etmişdir.

**Tədqiqatın elmi yeniliyi**. İlk dəfə olaraq bu tədqiqat işində əvvəlki tədqiqatlardan fərqli olaraq şəxsiyyətin hüquq düşüncəsinin sosial-psixoloji əsasları öyrənilmiş, problemə həsr olunmuş həm xarici, həm də yerli müəlliflərin nəzəri və eksperimental tədqiqatları sistemləşdirilmiş, hüquq düşüncəsinin sosial-psixoloji əsaslarının fərqli səviyyələrdə – hüquqi və hüquqazidd davranış kimi müqayisəli təhlili aparılmışdır.

İlk dəfə olaraq bu işdə:

- Hüquq düşüncəsi və onun formalaşmasına təsir edən mühit, milli-etnik, sosial-psixoloji, hüquqazidd davranış tərzləri və s. kimi amillər təhlil olunmuş, onların təsir dərəcəsi göstərilmişdir.

- Statistik göstəricilərdən istifadə edilməklə cinayətkarın və qanuna əsaslanan davranışın müqayisəli təhlili aparılmış, cinayətkarın yenidən sosiallaşması prosesinin sosial-psixoloji aspektləri öyrənilmış və profilaktik tədbirlər kimi hüquqi maarifləndirmə ilə bağlı təkliflər işlənib hazırlanmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

- Şəxsiyyətin sosial münasibətləri, dərketmə imkanları, motivləri, maraq dairəsi, sosial yönəlişliyi, sosial rolu və s. kimi amillər onun hüquq düşüncəsinin formalaşmasında əsaslı rol oynayır.

- Şəxsiyyətin xarakteri və temperamenti, qavrama imkanları hüquqi davranışa təsir etsə də, bilavasitə konkret situasiya onun hüquqi mədəniyyətinin və həqiqi hüquqi yönəlişliyinin təzahürünə şərait yaradır.

- Qanunlara riayət olunmasına nəzarət edən orqanların stimullaşdırıcı

tədbirləri hüquq düşüncəsinin düzgün istiqamətdə formalaşmasına şərait yaradır və bu əsasda hüquqi maarifləndirmə fəaliyyətinin genişləndirilməsi şəxsiyyətin hüquq düşüncəsinin formalaşmasında əsaslı təsirə malik olur.

**Tədqiqatın elmi-nəzəri əhəmiyyəti.** Tədqiqat işində şəxsiyyətin hüquq düşüncəsinin mahiyyəti və məzmunu, hüquq düşüncəsinin strukturu və funksiyaları, şəxsiyyətin hüquq düşüncəsinin formalaşmasına təsir edən sosial – psixoloji amillər, hüquqi maarifləndirmə və müasir dövrdə Azərbaycanda hüquq düşüncəsinin formalaşmasına təsir edən sosial – psixoloji amillər araşdırılır. Tədqiqatdakı ümumiləşdirmələr və nəzəri müddəalar, həmçinin tədqiqatın nəticələri şəxsiyyətin hüquq düşüncəsinin formalaşması mexanizmlərinin müəyyənləşdirilməsi və bu istiqamətində mövcud biliklərin zənginləşdirilməsi baxımından mühüm elmi-nəzəri əhəmiyyət kəsb edir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqatın nəticələrindən ayrı-ayrı müəssisə və təşkilatlarda, o cümlədən orta məktəblərdə, ali təhsil müəssisələrində, idarəetmə strukturlarında, islah-əmək müəssisələrində fərdlərin hüquq düşüncəsinin formalaşdırılması və hüquqi maarifləndirilməsi istiqamətində aparılan işlərdə istifadə edilə bilər.

Tədqiqatın nəticələrindən sosial və hüquq psixologiyası, eləcə də hüquq sahəsində çalışan mütəxəssislər, müəllimlər, tələbələr, doktorantlar və bu sahə ilə maraqlanan digər şəxslər istifadə edə bilərlər. Tədqiqatın nəticələrindən seçmə fənlərin tədrisində istifadə oluna bilər.

**Tədqiqat işinin aprobasiyası**. Dissertasiya Azərbaycan MEA-nın Fəlsəfə və Hüquq İnstitutunun Sosiologiya və sosial psixologiya şöbəsində keçirilən elmi seminarlarda müzakirə edilmiş, dissertasiyanın əsas müddəaları və nəticələri müəllifin nəşr olunmuş məqalə və tezislərində, elmi seminar və konfranslarda etdiyi məruzələrdə öz əksini tapmış və bu yolla aprobasiyadan keçmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından və əlavələrdən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılır, onun işlənmə dərəcəsi araşdırılır, tədqiqatın məqsəd və vəzifələri, obyekt və predmeti, elmi yeniliyi, metodologiyası, praktiki əhəmiyyəti, nəzəri əsasları müəyyənləşdirilir, işin aprobasiyası və strukturu haqqında məlumat verilir.

Dissertasiyanın **"Şəxsiyyətin hüquq düşüncəsinin formalaşması**

**probleminin nəzəri əsasları"** adlanan I fəslində hüquq düşüncəsinin mahiyyəti, məzmunu, eləcə də strukturu və funksiyaları haqqında, hüquq düşüncəsinin sosial-psixoloji əsaslarının öyrənilməsinə dair hüquqi-psixoloji yanaşmalar, həmçinin şəxsiyyətin hüquq düşüncəsinin inkişaf istiqamətləri araşdırılır.

I fəslin **"Şəxsiyyətin hüquq düşüncəsinin mahiyyəti və məzmunu"** adlanan birinci yarımfəslində hüquq, hüquqi şüur, hüquqi düşüncə və onunla bağlı olan digər anlayışların şərhi verilir. Burada qeyd edilir ki, hüquq düşüncəsi hüquqi şüurun obyektivləşmiş formasıdır. Hüquq sosiomədəni reallığın simvolik mənimsənilməsi vasitəsi kimi cəmiyyətdə sabitlik və nizamı təmin edir. Sosial mədəni məkanın ayrılmaz tərkib hissəsi kimi çıxış edən hüquq düşüncəsi sosial tənzimləmə sisteminin əxlaq, din, adət-ənənələr və digər komponentlərini özündə birləşdirir. Bu yarımfəsildə vurğulanır ki, hüquq düşüncəsinin formalaşmasında xalqın dəyərlər sistemi, həyata münasibəti əsaslı rol oynayır. Aparılmış tədqiqatlar hüquq düşüncəsinin üç səviyyəsini fərqləndirməyə imkan verir:

1. Hüquq subyekti kimi səciyyələnən hüquqşünasın, yaxud qanunverici orqanların hüquq düşüncə tərzi;
2. Hüquq obyekti olan cinayətkarın hüquq düşüncə tərzi;
3. Hüquq obyekti olan sosiumun kütləvi hüquq düşüncə tərzi.

Bununla yanaşı qeyd olunur ki, hüquqi düşüncə səviyyələri fərqli sosial təbəqələrdə fərqli sosial-psixoloji əsaslarda formalaşır və təzahür edir. Bu yarımfəsildə göstərilir ki, qanunverici orqanlar səviyyəsində müşahidə edilən hüquqazidd davranış kütləvi səviyyədə formalaşan hüquqi davranışdan fərqlənir.

I fəslin **"Hüquq düşüncəsinin strukturu və funksiyaları"** adlı ikinci yarımfəslində hüquq düşüncəsi ilə hüquqi şüurun mahiyyət və məzmununun açılmasına cəhd edilir və bu məqsədlə bir sıra görkəmli müəlliflərin araşdırmalarına istinad edilir. Burada göstərilir ki, hüquq düşüncəsinin strukturu və funksiyaları ictimai şüurun əsas formalarından olan hüquqi şüurun strukturu və funksiyaları əsasında müəyyənləşir. Bu fikri əsaslandırmaq üçün ayrı-ayrılıqda şüur və hüquqi şüurun strukturu və funksiyaları təhlil edilir. Qeyd olunur ki, hüquqi şüur hüquqi biliklər, hüquqa münasibət və hüquqi davranışlar əsasında formalaşır. Bununla belə hüquqi şüurun strukturu və funksiyaları ictimai şüurun strukturu və funksiyalarını daşımaqla yanaşı özünəməxsus funksiyalara da malik olduğu göstərilir.

Hüquqi şüurun strukturu erkən yaş dövrlərində, insanın daxil olduğu sosial qrupların, ictimai və mədəni mühitin təsir dərəcəsindən asılı olaraq formalaşır. Hüquqi şüurun strukturu sosial xüsusiyyətə malik olub, iki element

əsasında özünü təzahür etdirir: hüquqi ideologiya və hüquqi psixologiya.

Bu yarımfəsildə hüquqi şüurun ümumi - koqnitiv, tənzimetmə və kommunikativ, xüsusi - dərketmə, qiymətləndirmə və hüquqi tənzimləmə funksiyaları fərqləndirilir. Hüquqi şüurun bir sıra formaları da qeyd olunur: elmi hüquqi şüur, gündəlik hüquqi şüur, peşəkar hüquqi şüur.

I fəslin **"Hüquq düşüncəsinin öyrənilməsinə dair nəzəri araşdırmalar: hüquqi-psixoloji yanaşmalar"** adlanan üçüncü yarımfəslində hüquq düşüncəsinin formalaşmasında üç əsas mərhələ fərqləndirilir: mənbələr, formalaşma və inkişaf. Burada Azərbaycanda hüquq düşüncəsinin formalaşması mənbələri qeyd edilir, Qərb mahiyyətli hüquq düşüncə tərzinin mənimsənilməsinin yaratdığı fəsadlar diqqət mərkəzinə gətirilir, hüquq psixologiyasının inkişaf tarixində hüquqi dünyagörüşünün formalaşması istiqamətləri göstərilir. Bu yarımfəsildə ilk rasionalist ideyalar haqqında fikrlər -Sokratın, Platonun və Aristotelin fikrləri təhlil olunur, Roma hüquq məktəbinin görkəmli nümayəndləri- Papinian, Qay, Ulpian, Pavel, Seneka, Mark Avreli və Siseronun hüquq düşüncəsinin inkişafı istiqamətində xidmətləri qeyd edilir. Bununla yanaşı orta əsrlərdə hüquq düşüncəsinin formalaşmasının tarixi-psixoloji şəraiti göstərilir və bu dövrdə aparılmış tədqiqatlar diqqət mərkəzinə gətirlir. Qeyd edililr ki, XVIII əsrdə maarifçilik ideyalarının inkişafı cəmiyyətin hüquqi tənzimlənməsi ilə bağlı hüquqi dünyagörüşündə də müəyyən dəyişiklilklərin yaranmasına səbəb olmuşdur. Həmin dövrün ideoloqlarından olan Ş.L.Monteskyö, M.F.A.Volter, K.Helvetsi, P.Holbax və b. dövlət tərəfindən şəxsiyyətin hərtərəfli inkişafının və onun müstəqilliyinin təmin edilməsinin hüquqi dünyagörüşün yaranmasının əsas prinsipləri olduğunu qeyd etmiş, hüquqi düşüncənin inkişaf istiqamətlərində özünü göstərən amillər sistemini müəyyənləşdirmişlər.

Bu dövrdə cinayətkar davranışın səbəb və mexanizmlərilə bağlı Ç.Lombrozo, H.Myunsterberq, E.Kreçmer, D.Kressin, E.Klapared, R.Sommer, D.Dril, F.Aleksander, Q.Ştauba, A.Adler, B.Karpmen, B.Bromberq və b. əsərləri təhlil olunur, müasir şərait baxımından onların müqayisəli təhlili verilir. Bu tədqiqatçıların əsərlərində cinayi davranışda anadangəlmə amillərin rolu araşdırılır və delikvent davranış meyllərinin yaranmasını bilavasitə psixi travmaların nəticəsi olduğu qeyd edilir.

Bu yarımfəsildə qeyd edilir ki, Azərbaycanda hüquq psixologiyasının bir elm kimi inkişafı XX əsrin 90-cı illərinə təsadüf edir. Lakin pedaqoji yönümdə şəxsiyyətin psixologiyası, davranış və motivasiyası, onun sosializasiyasına təsir edən amillərin öyrənilməsi problemi XX əsrin ortalarına təsadüf edir. Burada şəxsiyyətin hüquq düşüncəsinin formalaşması, hüquqi davranışın sosial-psixoloji əsasları ilə bağlı azərbaycanlı müəlliflərdən

B.Əliyev, Ə.Bayramov, Ə.Əlizadə, İ.Seyidov, F.Səməndərov, A.Rzayev və digər tədqiqatçıların problemlə bağlı tədqiqatları təhlil edilir.

I fəslin **“Sosial-psixoloji araşdırmalarda şəxsiyyətin hüquq düşüncəsinin inkişaf istiqamətləri”** adlanan dördüncü yarımfəslində şəxsiyyətin hüquq düşüncəsinin formalaşması istiqamətləri Z.Freydin psixoanlizi, neofreydizm, biheviorizm və antropoloji nəzəriyyələr əsasında təhlil edilir. Burada göstərilir ki, şəxsiyyətin strukturunu müəyyənləşdirərkən Z.Freyd insanın psixobioloji əsasını təşkil edən narsist meylləri diqqət mərkəzinə gətirirdi. O, güman edirdi ki, insanlar bir-biri üçün təhlükədir, yaxud sadəcə olaraq “qatillər qrupudur”. Onlar nəinki düşmənlərinin, müəyyən dərəcədə ən yaxın və sevimli adamlarının belə ölümünü istəyirlər.

Z.Freyd üçün insan həyatının faciəsi, motivləri – həyəcan, qorxu və günah motivləridir. O, fərdlə cəmiyyətin qarşılıqlı münasibətlərini, insan psixikası ilə mədəniyyətin qarşılıqlı təsir dinamikasını sosial-psixoloji münaqişələrin mənbəyi hesab edir. Bununla yanaşı bu yarımfəsildə hüquq düşüncəsi K.Yunqun arxetipləri, A.Adlerin hiperkompensasiyası, psixoloji-antropoloji nəzəriyyənin postulatları əsasında şərh edilir və qeyd edilir ki, üç səbəb – fiziki zəiflik, ərköyünlük və rədd edilmə–dünya haqqında səhv fikirlərin formalaşmasına və patoloji həyat tərzinin yaranmasına səbəb olur. Bu yarımfəsildə belə qənatə gəlinir ki, bu nəzəriyyələrdə qeyd olunmuş fikirlər bir-birini təkzib etsə də, hələ də psixologiyada vətəndaşlıq hüququnu qoruyub saxlayır.

Dissertasiyanın **“Müasir dövrdə Azərbaycanda hüquq düşüncəsinin formalaşması xüsusiyyətləri”** adlanan II fəslində hüquq düşüncəsinin təşəkkül və formalaşması məsələləri diqqət mərkəzinə gətirilir, etnopsixoloji amillərin hüquq düşüncəsinin istiqamətlərinə təsiri aydınlaşdırılır.

Dissertasiyanın II fəslinin birinci yarımfəsli **“Şəxsiyyətin hüquq düşüncəsinin formalaşmasına təsir edən sosial–psixoloji amillər”** adlanır. Bu yarımfəsildə göstərilir ki, bioloji genetik əsaslar, sosial mühit və ictimai mədəni göstəricilər şəxsiyətin inkişafı üçün vacib şərtlərdir. İnsanın sosiallaşması prosesində cəmiyyət və fərdi xüsusiyyətlərlə yanaşı, şəxsiyyətin aid olduğu xalqın mədəni xüsusiyyətləri, tarixi təcrübəsi əsaslı rol oynayır. Burada qeyd edilir ki, hüquqi sosiallaşma ümumi sosiallaşmanın tərkib hissəsi olub, onun xüsusi təzahür forması kimi çıxış edir və şəxsiyyətin siyasi və hüquq düşüncəsinin, hüquqi şüurunun və hüquqi mədəniyyətinin inkişaf səviyyəsi əsasında müəyyənləşir. Hüquqi sosiallaşma prosesində hüquq düşüncəsinin, hüquqi şüurun, hüquqi ideyaların və hüquqi mədəniyyətin formalaşmasında xalqın milli mentaliteti təyinedici əhəmiyyətə malik olur. Lakin onu da nəzərə almaq lazımdır ki, dəyişən sosial mədəni

şəraitdə hüquqi şüurla bağlı obyektiv şərtlər daima dəyişir. Şəxsiyyətin idealının, dəyərlərinin, istiqamətinin dəyişməsi, insanın mövcud reallığa uyğunlaşması hüquqi təsəvvürlərin də yeniləşməsinə səbəb olur. Bunula bərabər hüquqi şüur obyektiv hüququ əks etdirməklə yanaşı, hüquq yaradıcılığı, qanunvericilik fəaliyyətinin mahiyyətinə təsir edir.

Dissertasiyanın II fəslinin **"Hüquqi maarifləndirmə hüquqi düşüncənin formalaşdırılmasının əsasları kimi"** adlanan ikinci yarımfəslində hüquqi maarifləndirmə prosesi araşdırılır və qeyd edilir ki, hüquqi maarifləndirmə prosesi hüquqi tərbiyənin əsas metodlarından biri kimi çıxış edir, hüquqi biliklərin genişləndirilməsi və təbliği ümumi hüquqi mədəniyyətin yüksəlməsinə şərait yaradır. Burada hüquqi maarifləndirmənin əsas məqsədi hüquqa hörmət hissinin formalaşdırılması, əhalinin hüquqi biliklərə yiyələnməsi, sosial və hüquqi məsuliyyəti dərk etməsi kimi izah edilir, hüquqi maarifləndirmənin şəxsiyyətin fərdi hüquq düşüncə tərzinin formalaşmasına, cəmiyyətin və dövlətin tələblərinə, maraqlarına uyğun olan ümumi hüquqi prinsiplərin şəxsiyyət tərəfindən dərk edilməsinə şərait yaratması göstərilir. Qeyd olunur ki, hüquqi maarifləndirmənin əsasında hüquqi mədəniyyətin formalaşması dayanır.

Dissertasiyanın II fəslinin **"Müasir Azərbaycanda hüquq düşüncəsinin formalaşmasına təsir edən sosial-psixoloji amillər"** adlanan üçüncü yarımfəslində göstərilir ki, XX əsrin sonu - XXI əsrin əvvəllərində daha da sürətlənən qloballaşma prosesi çoxsaylı sosial, iqtisadi, hüquqi, psixoloji xarakterli problemlərin yaranmasına səbəb olmuşdur. Belə bir şəraitdə Azərbaycanda hüquq düşüncəsinin förmalaşmasına təsir edən amilləri AMEA-nın müxbir üzvü, professor Bəxtiyar Əliyev aşağıdakı kimi qruplaşdırır:

- Əvvəla ölkəmizin müharibə şəraitində olması, torpaqlarımızın 20 faizindən çoxunun Ermənistan tərəfindən işğal edilməsi, zəbt olunmuş Qarabağ və digər ərazilərdə xalqımızın maddi-mədəniyyət abidələrinin dağıdılması, məhv edilməsi, ölkədə bir milyondan artıq qaçqın və məcburi köçkünlərin olması və onların öz elindən-obasından, rahat yaşayış tərzindən məhrum olaraq ölkənin müxtəlif yerlərində özlərinə sığınacaq tapmaq məcburiyyətində qalması, təsərrüfatdan əllərinin üzülməsi, maddi məhrumiyyətlərə düçar olmaları ilə bağlıdır.
- İkinci tərəfdən, ölkədə ənənəvi iqtisadi sistemin dağılması, bazar iqtisadiyyatına "keçilməsi" əhalinin bir qisminin yeni şəraitə uyğunlaşa bilməməsi, işsizlik problemi.
- Üçüncüsü, idarəetmə və sosial tənzimin yetərincə olmaması. Bəzən isə məmur özbaşınalıqlarının əndazəsini keçməsi.

- Dördüncüsü, qrup mənafelərinin önə çıxması, bəzən də məqsədli, anlamı o qədər də bəlli olmayan "siyasi partiyaların" bir-birinə münasibətdə neqativ meyllərin yaranması və s. Bütün bu cəhətlər respublika əhalisinin psixoloji durumuna çox ciddi mənfi təsir göstərir və onlarda sosial yadlaşma, təcrid, tənhalıq, ümumi mənafeə laqeydlik, biganəlik, son nəticədə ümidsizlik halətləri yaradır və bunlar da, heç şübhəsiz, onların münasibətlər sistemində, rəftar və davranışlarında bəzən neqativ təzahürlərə gətirib çıxarır, hüquqi fəaliyyətin qarşısında bir sıra yeni, mürəkkəb problemlər çıxarır.

Qlobal dəyişikliklər dövründə Azərbaycanın hüquqi mövqeyini təhlil edən akademik Ramiz Mehdiyev bu zaman çərçivəsində milli dövlətçilik ənənələrinin bərpa edilməsi prosesinin xüsusi rolunu vurğulayaraq qeyd edir ki, "Sovet İttifaqının dağılmasından sonra digər 14 respublika ilə birlikdə Azərbaycan da dövlət müstəqilliyi qazandı… Yeni minillikdə öz tarixi inkişafının yeni mərhələsini yaşayan dövlətimiz və cəmiyyətimiz aşkarlıq və şəffaflıq tələb edən vətəndaş cəmiyyətinə transformasiya olunur. Bu isə öz növbəsində müasir dövlət quruculuğu və effektiv dövlət idarəçiliyi yaradılması prosesində bir sıra demokratik məzmunlu dəyişikliklərin aparılmasını tələb edir. Akademik R. Mehdiyev belə bir nəticəyə gəlir ki, milli dövlətimiz «İctimai şüurun yeniləşməsinə və müasir təfəkkür tərzinin formalaşmasına güclü təsir göstərir».

AMEA-nın müxbir üzvü, professor Bəxtiyar Əliyev Azərbaycanda dövlətçilik ənənələrinin yeni hüquqi əsaslarda formalaşmasında ümummilli liderimiz Heydər Əliyevin rolunu sosial-psixoloji əsaslarda təhlil edərək belə bir nəticəyə gəlir ki, «Azərbaycançılıq ideyasına söykənib xalqı birləşdirən və ondan güc alan ümummilli lider dövlətçiliyi və milli maraqları qoruyur». Bu fikirlər əsasında hüquq düşüncəsinin formalaşmasında iki qrup amillər fərqləndirilir:

1. Milli dövlətçilik ənənələri, qanunvericilik, siyasi lider;
2. İctimai şüur, ictimai qavrama, hüquqi dəyişikliklərə hazırlıq səviyyəsi və s.

Olduqca sanballı olan bu tədqiqatlarda hüquq düşüncəsinin formalaşması istiqamətləri göstərilir, hüquqi düşüncənin sosial-psixoloji aspektləri təhlil olunur və milli dövlət quruculuğu konteksində vətəndaş cəmiyyətinin yaranmasının hüquq düşüncəsində yaratdığı dəyişikliklər diqqət mərkəzinə gətirilir.

Dissertasiyanın "**Şəxsiyyətin hüquq düşüncəsinin müasir şəraitdə inkişafının sosial-psixoloji tədqiqi**" adlanan III fəsli üç yarımfəsildən ibarətdir. III fəslin **"Tədqiqatın təşkili, keçirilməsi və nəticələrin təhlili"**

adlanan birinci yarımfəslində müasir dövrdə Azərbaycanda şəxsiyyətin hüquq düşüncəsinin formalaşması imkanlarının və inkişaf perspektivlərinin empirik əsaslarda öyrənilməsi məqsədilə keçirilmiş sosioloji sorğu, Ayzenqin şəxsiyyət sorğusu metodu, A.N.Oryolun “Normadan yayınan davranışa meyillilik” lə bağlı test-sorğusu, L.Kolberqin “Dilemmalar” (6 dilemma) metodunun təsviri və ümumləşdirilimiş nəticələr verilir.

Tədqiqatda Binəqədi rayon 3 saylı ümumtəhsil məktəbinin şagirdləri, Bakı Dövlət Universitetinin tələbələri və Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunun alimləri iştrak etmişlər.

Tədqiqat 300 nəfəri əhatə edirdi. Onlardan – 150 nəfər şagird, 100 nəfər tələbə və 50 nəfər ekspert qismində yetkin yaşlı insanlar olmuşlar. Tədqiqat üç mərhələdə həyata keçirilmişdir.

Birinci mərhələdə şagirdlərin hüquqi bilikləri nəzərə alınaraq tərtib edilmiş sorğular əsasında yeniyetmələr arasında sorğu keçirilib. Şagirdlər üçün tərtib edilmiş sorğular onların Konstitusiya ilə bağlı bilikləri əsasında tərtib edilib və Konstitusiya qanunları haqqında məlumatlılıq səviyyəsinin müəyyənləşdirilməsinə yönəlib.

İkinci mərhələdə hüquqi bilik səviyyəsi nəzərə alınmaqla tələbələr arasında tədqiqat aparılıb.

Üçüncü mərhələdə isə ekspert qismində çıxış edən alimlər arasında sorğu keçirilmişdir.

Sorğunun təhlilindən aşağıdakı nəticələr əldə edilmişdir:

1. Hüquq düşüncəsinin formalaşmasında müasir qloballaşma prosesi, ölkədə keçirilən hüquqi islahatlar, beynəlxalq əsaslı hüquqi dəyişikliklər əsaslı təsirə malikdir.

2. Respondentlərin böyük bir qismi öz hüquqları haqqında az məlumatlıdırlar və əksər hallarda bilavasitə öz fəaliyyət çərçivələri daxilində müəyyən hüquqları dərk edirlər.

3. Hüquq düşüncəsinin formalaşmasında demoqrafik göstəricilərin (təhsil, yaş, maddi vəziyyət, əmək fəaliyyəti və s.) təsiri yüksəkdir.

H. Ayzenkin şəxsiyyət sorğusu əsasında sorğuya cəlb edilmiş şəxslərin temperament tipinin müəyyən edilməsinə çalışılmışdır. Tədqiqat 50 nəfər gənc oğlan və qız arasında aparılmşdır. Sorğunun keçirilməsində əsas məqsəd sorğuya cəlb edilmiş şəxslərin xarakter və temperamentləri əsasında onların hüquqi düşüncə səviyyəsini müəyyən etmək olmuşdur. Sorğu nəticəsində müəyyən olunmuşdur ki, 50 nəfər gənc oğlan və qızlardan 18 nəfəri introvert, 32 nəfəri isə ekstravertdir.

Temperament tipi müəyyən olunduqdan sonra həmin gənclərin hüquqi düşüncə səviyyəsinin müəyyən edilməsi üçün A.N.Oryolun “Normadan

yayınan davranışa meylliliklə" bağlı test-sorğusundan və L.Kolberqin "Dilemmaları" ndan istifadə edilmişdir.

Hüquqi düşüncə səviyyəsini öyrənmək məqsədilə keçirilən metodikaların nəticəsi göstərdi ki, introvert tipə aid gənclərin normadan yayınan davranışa meyllilik səviyyəsi aşağıdır. Bunun əsas səbəbi introvert tipinə aid olan şəxslərdə daha çox özünəqapanma, öz daxili dünyasına yönəlmə müşahidə olunur. Onlar ictimai nəzarətə qarşı daha həssas olurlar və öz davranışlarını kənar baxışla qiymətləndirməyə meylli olurlar. İntrovertlər az ünsiyyətlidirlər, onlarda həyacanlılıq səviyyəsi yüksək olur, risk etməyi xoşlamırlar. Nadir hallarda aqressiv olurlar. Etik normaları yüksək qiymətləndirir, ani hisslərin təsiri altına düşmürlər, onların hərəkətləri düşünülmüş olur, öz hisslərinə ciddi nəzarət edirlər.

Tədqiqat göstərdi ki, 32 nəfər ekstravert tipinə aid olan gənc oğlan və qızlarda isə normadan yayınan davranışa meyllilik səviyyəsi yuxarıdır. Ekstravert tipinə aid olan insanlar ictimai nəzarətə deyil, ictimai təqdirə və çox zaman nümayişkəranə davranışa (yalançı qəhrəmanlıq və s.), ətraf insanlara və hadisələrə meylli olurlar. Ekstrovertlər ünsiyyətə asanlıqla girirlər, liderliyə meyilli olurlar, diqqət mərkəzində olmağı xoşlayırlar. Onlarda aqressivlik səviyyəsi yüksəkdir, monoton işləri xoşlamırlar, əyləncəyə meyllidirlər, özlərinə inanırlar. Bəzən isə özünüqiymətləndirmə səviyyəsi yüksək olan bu tip insanlar qoyulan qadağaları özlərinə təhqir bilirlər və qaydaları pozmağa meylli olurlar.

A.N. Oryolun "Normadan yayınan davranışa meyllilik" lə bağlı test-sorğusunun nəticələri üç şkalanı ayırmağa imkan verdi:

I. Norma və qaydaları pozmağa meyllilik şkalası;
II. Aqressiya və zorakılığa meyllilik şkalası;
III. Delikvent davranışa meyllilik skalası .




Şək. 3.1. Norma və qaydaları pozmağa meyllilyin səviyyələri

Şək. 3.1-dən göründüyü kimi norma və qaydaları pozmağa meylliliklə bağlı birinci şkala üzrə respondentlərin 20% (3 nəfər qız, 7 nəfər oğlan) yüksək, 24% (8 nəfər qız, 4 nəfər oğlan) orta və 56% (14 nəfər qız, 14 nəfər oğlan) aşağı səviyyə olduğu müəyyən edilmişdir.




Şək.3.2. Aqressiya və zorakılığa meyllilyin səviyyələri

Şək. 3.2-dən göründüyü kimi aqressiya və zorakılığa meylliliklə bağlı ikinci şkala üzrə respondentlərin 44% (13 nəfər qız, 10 nəfər oğlan) yüksək, 14% ( 5 nəfər qız, 2 nəfər oğlan) orta və 42% (8 nəfər qız, 11 nəfər oğlan) aşağı səviyyədə olduğu aşkarlanmışdır.




Şək. 3.3. Delikvent davranışa meyllilyin səviyyələri

Şək. 3.3-dən göründüyü kimi delikvent davranışa meylliliklə bağlı üçüncü şkala üzrə respondentlərin 10% (3 nəfər – qız, 2 nəfər oğlan) yüksək, 20% ( 4 nəfər – qız, 6 nəfər oğlan) orta və 70% (18 nəfər – qız, 17 nəfər oğlan) aşağı səviyyədə olduğu müəyyən edilmişdir.

Tədqiqatın ümumiləşdirilməsi əsasında belə bir nəticə əldə edilib ki, tələbə qızlar daha aqressiv olsalar da oğlanlarla müqayisədə onlar deviant

və delikvent davranışa daha az meyllidirlər. Tələbə oğlanlar aqressivdirlər və qızlarla müqayisədə onlar deviant və delikvent davranışa daha çox meyllidirlər. Hüquqi bilikləri və hüquq düşüncə səviyyəsindən asılı olmayaraq gənclər bu və ya digər hüquqpozucu davranışa qismən meyllidirlər.

Tədqiqat zamanı delikvent davranışın qiymətləndirilməsi və bu davranışa meyllilik səviyyəsinin öyrənilməsi məqsədilə L.Kolberqin "Dilemmalar"ından (delikvent davranışa meyllilikl bağlı 6 dilemma) istifadə olunmuşdur. Ayrı-ayrı situasiyaların qiymətləndirilməsində tələbələrin əksəriyyətinin qanunlar çərçivəsində hərəkət etməyə üstünlük verdikləri görünür. Doğrudur bir qism tələbə daha çox insani münasibətlərə, mənəvi dəyərlərə əsaslanaraq hərəkət etməyə meyllidirlər, lakin qeyd etdiyimiz kimi belə fikirlər çoxluğa aid deyil.

Hər üç testin nəticələrinin müqayisəli təhlili əsasında deyə bilərik ki, nəticələr üst-üstə düşür. Gənclərin çox az bir hissəsi delikvent davranışa meyllidir və bu gənclər etdikləri hərəkətin qanunazidd olduğunu da başa düşürlər. Yəni tələbələrin hüquq düşüncə tərzi qənaətbəxşdir. Beləliklə, qeyd etmək olar ki, hüquqi bilikləri və hüquq düşüncə səviyyəsindən asılı olmayaraq gənclər bu və ya digər hüquqpozucu davranışa qismən meyllidirlər.

Dissertasiyanın III fəslinin ikinci yarımfəsli **"Müasir şəraitdə şəxsiyyətin hüquq düşüncəsinin əsas inkişaf meylləri"** adlanır. Bu yarımfəsildə şəxsiyyətin hüquq düşüncəsinin əsas inkişaf meylləri kimi demokratik cəmiyyətin formalaşdırılması, vətəndaş cəmiyyətinin yaranması, insanların hüquq və azadlıqları ilə bağlı qanunverici aktların qəbulu və s. kimi məsələlər diqqət mərkəzinə gətirilir. Burada qeyd olunur ki, cəmiyyətdə yeni dəyərlərin ortaya çıxması və onların transformasiyası yeni normativlər yaradır. Bununla yanaşı nəzərə almaq lazımdır ki, yeni dövlət quruculuğu şəraitində hüquqazidd davranış formaları və cinayətlərin kəmiyyəti artır. Cinayətkarlığın transmilliləşməsi onun qeyri-leqal miqrasiya, qadın və uşaqlarla ticarət, terrorizm, narkobiznes, korrupsiya, kompüter cinayətkarlığı, çirkli pulların yuyulması və s. kimi formalarında aydın təzahür edir. Bunun başlıca səbəblərindən biri inteqrasiya prosesində xaraktercə əvvəlkilərdən fərqli cinayət formalarının meydana çıxmasıdır.

Müasir dünyada baş verən qlobal dəyişikliklər dövrün xüsusiyyətlərinə uyğun cinayətkarlıq formalarının inkişafına şərait yaratmışdır. Statistik göstəricilərin müqayisəli təhlili əsasında qeyd etmək olar ki, bir sıra cinayətkarlıq halları daha geniş miqyas alıb. Bütün bunlar şəxsiyyətin hüquq düşüncəsinin əsas inkişaf meyllərinə təsir etməyə bilməz. Təbii ki, şəxsiyyətin hüquq düşüncəsinin inkişaf meylləri hər bir cəmiyyət üçün eynilik

təşkil edə bilməz. O, hər şeydən əvvəl cəmiyyətdə demokratik dəyərlərin üstünlük dərəcəsindən və məhkəmə fəaliyyətinin müstəqilliyindən asılıdır.

Dissertasiyanın III fəslinin üçüncü yarımfəsli **"Hüquq düşüncəsinin inkişafına təsir göstərən neqativ amillərin profilaktikası"** adlanır. Burada göstərilir ki, hüquq düşüncəsinin inkişafına təsir göstərən neqativ amillərin profilaktikası dedikdə, həmin şəraiti aradan qaldıran, şəxsin davranışını korreksiya edən dövlət orqanları və ictimai təşkilatların fəaliyyəti nəzərdə tutulur. Qeyd edilir ki, hüquq düşüncəsinin, hüquqi və hüquqazidd davranışın formalaşmasında şəxsiyyətin daxil olduğu sosial qrupların və ailənin böyük rolu olduğu üçün profilaktika işini ailələrdən başlamaq lazımdır. Həmçinin yeniyetmələrin və gənclərin tərbiyəsi, hüquqi təlimləndirilməsi valideynlərin psixoloji, sosial vəziyyətlərilə şərtləndiyi üçün valideynlər arasındakı psixoloji, pedaqoji və hüquqi biliklərin yayılması profilaktik cəhətdən mühüm əhəmiyyət kəsb edir. Onlarda hüquqazidd davranışın qarşısını almaq üçün vəzifə borcu və məsuliyyət, qanun və əxlaq normalarına riayət etmək kimi keyfiyyətlər aşılamaq lazımdır. Bundan başqa cəmiyyətin təqdir etmədiyi hərəkətləri onların nəzərinə çatdırmaq zəruridir. Yeniyetmə və gəncləri əməyə, ictimai işlərə həvəsləndirmək lazımdır.

Cinayətkarların profilaktikasında müxtəlif ictimai qrupların rolu böyükdür. Bu istiqamətdə müvafiq müəssisələrin rolunu da göstərmək mümkündür. Əsas təşkilati aspektlərdən biri cinayətkarlığa sövq edən səbəblərin və şəraitin aşkara çıxarılması, öyrənilməsi və aradan qaldırılmasıdır. Profilaktik tədbirlərə bunları aid etmək olar:

- Hüquqi maarifləndirmənin genişləndirilməsi;
- Əmək fəaliyyəti sahələrində hüquqazidd davranışlı insanlarla işin təşkili;
- Əvvəllər hüquqpozmalar və ya cəzaya layiq cinayət törətmiş insanlarla maarifləndirmə işinin təşkili;
- Ümumtəhsil, internat, texniki peşə məktəblərində, ali təhsil müəssisələrində oxuyan yeniyetmə və gənclərlə hüquqi tərbiyə və tədris işinin təşkili;

Nəzəri tədqiqatların təhlil və keçirdiyimiz eksperiment aşağıdakı **nəticəyə** gəlməyə imkan verir:

- Hüquqi düşüncəsinin formalaşması istiqamətləri sağlam hüquqi düşüncəyə və hüquqi davranışa malik olan insanlarda olduğu kimi, hüquqazidd, cinayi davranış törədən insanlarda da eyni xarakterə malik ola bilər. Onların davranışlarındakı fərq bilavasitə sosial mühitə və cəmiyyətin yaratdığı qanunlara münasibətlə bağlı olur.
- Fərdi hüquqi şüur biliklər, tərbiyə, adət-ənənələr, fərdin böyüdüyü so-

sial mühitin mənəvi xüsusiyyətləri əsasında formalaşır. Bununla yanaşı cəmiyyətdə referent, yaxud qeyri-referent qruplarda fərqli fərdi-psixoloji xarakterə, lakin uyğun davranış yönümünə malik insanların hüquqi düşüncəsində, qanunlara münasibətində identiklik müşahidə olunur.

- Apardığımız tədqiqat göstərdi ki, tələbə qızlarda daha aqressiv davranış tərzləri müşahidə olunsa da, oğlanlarla müqayisədə onlar deviant və delikvent davranışa daha az meyllidirlər. Bu o deməkdir ki, aqressivliklə deviant davranışın arasında özünü göstərən asılılıq cinsi fərqlər fonunda əhəmiyyətli əlaqəyə malik deyil.

- Tələbə oğlanlar qızlarla müqayisədə deviant və delikvent davranışa daha çox meyllidirlər. Hüquqi bilikləri və hüquqi düşüncə səviyyəsindən asılı olmayaraq gənclər bu və ya digər hüquqpozucu davranışa qismən meyllidirlər.

- Ayrı-ayrı situasiyaların qiymətləndirilməsində tələbələrin əksəriyyətinin qanunlar çərçivəsində hərəkət etməyə üstünlük verdikləri aşkarlanmışdır. Bir qrup tələbə daha çox insani münasibərlərə, mənəvi dəyərlərə əsaslanaraq hərəkət etməyə meylli olduğunu göstərmişdir. Lakin belə davranış tərzi çoxluğa aid deyil.

- Tədqiqat göstərdi ki, gənclərin çox az bir hissəsi delikvent davranışa meyllidir və bu isə gənclərin etdikləri hərəkətin qanunazidd mahiyyətini anlaması, dolayısı yolla hüquq düşüncəsinin adekvat formalaşmasının göstəricisidir.

- Şəxsiyyətin adekvat hüquq düşüncəsi onun özünüdərketmə qabiliyyətini, bacarıqlarını formalaşdırır və ümumi hüquqi biliklərin fərdi təzahürünün əsasını təşkil edir.

- Müasir dövrdə Azərbaycan cəmiyyətində hüquqi mədəniyyətin formalaşması özünəməxsus etnopsixoloji və səciyyəvi xüsusiyyətlər malikdir. Belə ki, insanların öz hüquq və vəzifələri haqqında, dövlət haqqında biliklərinin və təsəvvürlərinin səviyyəsi ilə davranışları arasında fərqlər var. Bu isə köhnə sosial və hüquq normalarının davranışda ciddi iz qoyduğunu göstərir.

- Hüquqi maarifləndirmə hüquq düşüncəsi və hüquqi mədəniyyətin formalaşdırılması və inkişafı ilə bağlı dövlətin və cəmiyyətin məqsədyönlü və sistemli fəaliyyəti kimi başa düşülməlidir. Hüquq düşüncəsi və hüquqi mədəniyyət səviyyəsi hüquqi hazırlığa imkan yaradır, insanların hüququ qəbul edərək ona əməl etməsinə, hüququn reallaşmasına kömək edir.

- Araşdırma nəticəsində məlum oldu ki, sosial-psixoloji amillər şəxsiyyətin sosial status və fərdi xüsusiyyətləri ilə çuğlaşaraq onun hüquq düşüncəsinin inkişaf səviyyəsini şərtləndirir.

- Hüquqi və hüququzidd davranışın sosial-psixoloji mexanizminin və xüsusiyyətlərinin təhlili əsasında, hüquqi maarifləndirmənin effektiv təşkilinə, eləcə də hüquq düşüncəsinin inkişafının adekvat səviyyəsinə nail olmaq mümkündür.

Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı məqalə və tezislərində əks olunmuşdur:

1. Şəxsiyyətin hüquqi sosializasiyası və hüquqi düşüncəsi problemi // Psixologiya jurnalı, Bakı, 2008, №1, s.124-129.

2. Yeniyetmələrin hüquqazidd davranışı və onlarla aparılan profilaktik işin təşkili // Psixologiya jurnalı, Bakı, 2008, №4, s.104-110.

3. Yeniyetmələrin hüquqazidd davranışına təsir edən sosial-psixoloji amillər // Psixologiya jurnalı, Bakı, 2009, №2, s.121-127.

4. Hüquqazidd davranışın sosial-psixoloji motivləri // Dirçəliş XXİ əsr, Bakı, 2010, №143-144, s. 201-209.

5. Hüquqi maarifləndirmə hüquqi düşüncənin formalaşdırılmasının əsası kimi // AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun Elmi əsərləri, Bakı, 2011, №1(16), s. 353-356.

6. Şəxsiyyətin hüquqi düşüncəsinin formalaşmasının əsasları / Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən keçirilən doktorantların və gənc tədqiqatçıların XV Respublika elmi konfransının materialları. Bakı: 2011, s. 355-357

7. Azərbaycanda hüquqi düşüncənin formalaşmasının tarixi əsasları // Dirçəliş XXİ əsr, Bakı, 2012, s. 141-152

8. Правовая социализация личности // Поиск Изденич, Казахстан 2012, №1(2), с. 310-314.

9. Kriminogen submədəniyyətlər / Qloballaşma şəraitində kulturoloji innovasiyalar və sosial-mədəni inkişaf. Beynəlxalq konfrans materialları. Bakı: 2012, s.117-121

10. Hüquqi təfəkkür tərzi şəxsiyyətin sosiallaşmasının tərkib hissəsi kimi / AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun Həyat sosiologiyası məcmuəsi. Bakı: 2014, №3, s.132-140

**Судаба Новрузали гызы Гусейнова**

# СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ПРАВОСОЗНАНИЯ ЛИЧНОСТИ В СОВРЕМЕННЫХ УСЛОВИЯХ

Укрепление межгосударственной интеграции, создание условий для перехода к обществу нового типа повлияло на формирование в правовых институтах, как и во многих других сферах общественного сознания, характерно нового образа мышления, и утверждения в данном контексте системы новых отношений. С этой точки зрения, исследование правосознания личности является актуальным. Диссертация состоит из введения, трех глав, заключения, списка литературы и приложений.

Во введении обосновывается актуальность темы, степень ее изученности, определяются цели и задачи, объект и предмет, новизна, методология, практическое значение, теоретическая основа исследования, приводятся сведения об апробации работы и ее структуре.

Первая глава диссертации – **«Теоретические основы формирования правосознания личности»** – посвящена изучению сущности и содержания, социально-психологических основ, структуры и функций правового мышления, а также анализу направлений развития правового мышления личности в социально-психологических исследованиях.

Во второй главе диссертации под названием **«Особенности формирования правосознания в современном Азербайджане»** основное внимание уделяется этапам становления правового мышления; наряду с обществом и личными качествами подчеркивается важная роль особенностей культуры, исторического опыта народа, к которому принадлежит личность. Здесь также отмечается, что правовая социализация была составной частью общей социализации, и выступает как особая форма ее проявления, определяющая политическое и правовое мышление личности на основе уровня развития правового сознания и правовой культуры.

Третья глава диссертации – **«Социально-психологический анализ развития правосознания личности в современных условиях»** – связана с результатами экспериментально-психологического исследования и проблемами профилактики правового мышления. По результатам исследования можно сделать вывод, что хотя студентки и являются более агрессивными, чем студенты, они, все же, менее склонны к девиантному и деликвентному поведению. Молодежь, независимо от правовых знаний и правосознания, склонна к тем или иным правонарушениям.

В заключении обобщаются основные результаты исследования, из которого можно сделать вывод, что влияние социально-психологических факторов обуславливает особенности развития правосознания личности; также существует возможность рациональной организации развития правосознания на основе анализа социально-психологических механизмов и особенностей правового и противоправного поведения, при этом подчеркивается влияние правового просвещения на правильное формирование правосознания.

***Sudaba Novruzali Huseynova***

## SOCIALLY-PSYCHOLOGICAL ASPECTS OF LEGAL CONSCIOUSNESS OF THE PERSON IN THE MODERNITY

Strengthening of interstate integration, creation of conditions for transition to a society of new type has affected formation at legal institutes, as well as in many other things spheres of public consciousness, is characteristic a new mentality and the statement in the given context of system of new relations. From this point of view, research of legal consciousness is actually. The dissertation consists of the introduction, three heads, the conclusion, the list of the literature and appendices.

In the introduction are defined the theme urgency and its studying level, the purposes and problems, the object and a subject, novelty, methodology, practical value, a theoretical basis of research, there are resulted data on approbation of work and its structure.

Dissertation's first chapter – **«Theoretical bases of formation of legal consciousness of the person»** – is devoted to studying of essence and the maintenance, socially-psychological bases, structure and functions of consciousness, and also to the analysis of directions of development of legal thinking of the person in socially-psychological researches.

In the second chapter of the dissertation under the name **«Formation features of the legal consciousness in modern Azerbaijan»** the main attention is given to stages of formation of consciousness; along with a society and personal qualities the important role of features of culture, historical experience of the people to which the person belongs is underlined. It is here too noticed, that legal socialization was a component of the general socialization, and acts as the special form of its display defining political and legal thinking of the person on the basis of development level of legal consciousness and legal culture.

The third chapter of the dissertation – **«The socially-psychological analysis of development of legal consciousness of the person in modern conditions»** – is connected with results of experimentally-psychological research and problems of preventive maintenance of consciousness. By results of research it is possible to draw a conclusion, that, despite the raised aggression of students, they, in comparison with students, are less inclined to deviant and delinquent behavior. The youth, irrespective of legal knowledge and consciousness, is inclined to those or other offences.

In the conclusion part are generalized the basic results of research from which it is possible to say, that influence of socially-psychological factors causes features of development of legal thinking of the person; also there is a possibility of the rational organization of development of legal consciousness on the basis of the analysis of socially-psychological mechanisms and features of legal and illegal behavior, influence of legal education on correct formation of consciousness is thus underlined.

Sifariş N 1004; tiraj 100
“MBM” nəşriyyatının mətbəəsində
çap olunmuşdur